**“Kapital Bank” ASC-nin**
**Səhmdarlarının növbədənkənar ümumi yığıncağının**
**PROTOKOLUNDAN ÇIXARIŞ**
**№: 02**

**Bakı şəhəri** **“17” noyabr 2022-ci il**

| | |
|---|---|
| **İCLASIN YERİ** | Bakı şəhəri, Badamdar qəsəbəsi, Mikayıl Müşviq küçəsi 2E ünvanında yerləşən “Kapital Bank” ASC-nin ofisində (3-cü mərtəbə, iclas zalı) |
| **İCLASIN NÖVÜ** | **Növbədənkənar** |
| **İŞTİRAK ETDİ** | **1.** Azərbaycan Respublikasının hüquqi şəxsi olan **“PAŞA Holding” MMC**, etibarnamə əsasında nümayəndəsi **Yaşar Zeynalabdı oğlu Məmmədov** (17.11.2022-ci il tarixə adi adlı səhmlərin 99,873567 %-i və ya 14 981 035 ədəd səhm, imtiyazlı adlı sənədsiz səhmlərin 16,60785 %-i və ya 804 254 ədəd səhm)<br>**2.** Azərbaycan Respublikasının vətəndaşları olan **18 (on səkkiz) şəxs** (17.11.2022-ci il tarixə adi adlı səhmlərin 0,0413%-i və ya 6197 ədəd səhm və imtiyazlı adlı sənədsiz səhmlərin 0,03332%-i və ya 1613 ədəd səhm)<br>**3.** Ümumilikdə 17.11.2022-ci il tarixə səsvermə hüququ olan adi adlı səhmlərin 99,914867%-i və ya 14 987 232 ədəd səhm və imtiyazlı adlı sənədsiz səhmlərin 16.64117%-i və ya 805 867 ədəd səhm sahibi olan səhmdarlar iştirak etdiyi üçün Yığıncaq səlahiyyətlidir. |
| **DƏVƏT OLUNMUŞLAR** | **1. Arif Mehdiyev**<br>**2. Zaur Musayev** |
| **İCLASIN SƏDRİ** | **Yaşar Məmmədov** |
| **İCLASIN KATİBİ** | **Aynur Bayramova** |

**MƏSƏLƏ 2**

| |
|---|
| **“Kapital Bank” ASC-nin səhmlərin buraxılması yolu ilə nizamnamə kapitalının artırılması haqqında** |
| **DİNLƏNİLDİ** |
| **Gündəlikdə duran ikinci məsələ ilə bağlı çıxış edən “Kapital Bank” ASC-nin Maliyyə hesabatlılığı və mühasibatlıq departamentinin direktor müavini Zaur Musayev** qeyd etdi ki, “Kapital Bank” ASC-nin nizamnamə kapitalının artırılması təklif olunur.<br><br>Bildirildi ki, “Kapital Bank” ASC-nin (VÖEN: 9900003611, Hüquqi ünvan: Bakı ş., AZ1014, Füzuli küçəsi 71) (Emitent) nizamnamə kapitalının hər birinin nominal dəyəri **12.39 AZN (on iki manat, otuz doqquz qəpik**) olan **1 614 205** (bir milyon altı yüz on dörd min iki yüz beş) ədəd adi, sənədsiz, adlı |

səhmlərin buraxılışı (kütləvi təklif üsulu ilə yerləşdirilməklə) yolu ilə artırılması nəzərdə tutulmuşdur. Buraxılacaq səhmlərin ümumi dəyəri bankın hazırkı nizamnamə kapitalının on faizindən az olmaqla, **19 999 99.95** (on doqquz milyon doqquz yüz doxsan doqquz min doxsan doqquz manat, doxsan beş qəpik) manat nəzərdə tutulur. Buraxılacaq səhmlərin onun sahiblərinə aşağıda sadalanan hüquqları verəcəyi iclas iştirakçılarının diqqətinə çatdırılmışdır:

- Emitentin idarə edilməsində Azərbaycan Respublikasının qanunvericiliyi və Emitentin nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək;

– qanunvericiliklə müəyyən edilmiş qaydada Emitentin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;

– Emitentin səhmdarlarının ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;

– Emitentin xalis mənfəətindən dividend almaq;

– Emitentin fəaliyyətinə xitam verildikdə, onun kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra Emitentin yerdə qalan əmlakının payına mütənasib hissəsini almaq;

– Azərbaycan Respublikasının qanunvericiliyində və Emitentin nizamnaməsində nəzərdə tutulmuş digər hüquq və vəzifələrə malikdirlər.

Bildirilmişdir ki, kütləvi qaydada "Bakı Fond Birjası" QSC-də yerləşdiriləcək səhmlərinin anderrayteri kimi "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC (VÖEN: 1402281511, Hüquqi ünvan: AZ1095, Bakı şəh., Lev Tolstoy, 170, Faktiki ünvan: AZ1065, Bakı şəh., C.Cabbarlı, 44 (Caspian Plaza) çıxış edəcəkdir və abunə yazılışı dövründə anderrayter öz səlahiyyətləri çərçivəsində potensial investorları emissiya şərtləri ilə tanış edəcəyi, emissiya şərtlərini onlara izah edəcəyi, sifarişlərin hazırlanmasına kömək edəcəyi və sifarişləri qəbul edəcəyi iştirakçıların diqqətinə çatdırılmışdır.

Daha sonra səhmlərin kütləvi yerləşdirilməsi qaydası və abunə yazılışı ilə bağlı iştirakçılara aşağıdakı məlumatlar təqdim edilmişdir:

**- Səhmlərə abunə yazılışının qaydası:**

Abunə yazılışı internetdə sayt vasitəsilə elektron və ya yazılışı şəkildə bildirişlərin təqdim edilməsi yolu ilə keçiriləcəkdir.

**- Abunə yazılışının minimum və maksimum məbləği:**

Buraxılış üzrə minimum məbləğ olaraq 19 999 999.95 (on doqquz milyon doqquz yüz doxsan doqquz min doqquz yüz doxsan doqquz manat doxsan beş qəpik) manat məbləğində 1 614 205 (bir milyon altı yüz on dörd min iki yüz beş) ədəd səhmin yerləşdirilməsi nəticəsində emissiya baş tutmuş hesab olunur.

Qəbul edilən 19 999 999.95 (on doqquz milyon doqquz yüz doxsan doqquz min doqquz yüz doxsan doqquz manat doxsan beş qəpik) manat məbləği yığıldıqdan sonra abunə yazılışı dayandırılır.

**- Abunə yazılışı zamanı sifarişlərin geri çağırılması və abunəçilər tərəfindən ödənilmiş artıq məbləğin geri qaytarılması qaydası:**

Abunəçi tərəfindən ümumi dəyəri 19 999 999.95 (on doqquz milyon doqquz yüz doxsan doqquz min doqquz yüz doxsan doqquz manat doxsan beş qəpik) manat, hər birinin nominal dəyəri 12,39 (on iki manat otuz doqquz qəpik) manat olan, 1 614 205 (bir milyon altı yüz on dörd min iki yüz beş) ədəd adi, adlı sənədsiz səhmlərin geri çağırılması abunə yazılışının bitmə tarixinə qədəq mümkündür. Abunə müddətində elan olunmuş 19 999 999.95 (on doqquz milyon doqquz yüz doxsan doqquz min doqquz yüz

doxsan doqquz manat doxsan beş qəpik) manat məbləğindən artıq məbləğin ödənilməsi nəzərdə tutulmur.

Ödəniş 5 (beş) iş günü ərzində nəzərdə tutulduğu üçün artıq məbləğin qaytarılması nəzərdə tutulmur.

- **Abunə yazılışı zamanı sifarişlərin məbləği təklifin məbləğindən çox olduqda səhmlərin yerləşdirilməsi qaydası:**

Elan olunmuş 19 999 999.95 (on doqquz milyon doqquz yüz doxsan doqquz min doqquz yüzdoxsan doqquz manat doxsan beş qəpik) manat məbləği yığıldıqdan sonra abunə yazılışı dayandırılır.

- **Bir şəxs tərəfindən abunə yazılışı zamanı, verilən bir neçə sifarişlərin qəbul edilib-edilmədiyinin şərtləri:**

Sifarişlər elan olunmuş məbləğ həddində qəbul edilir və səhmlərin nominal dəyəri ilə yerləşdirilir. Emitentin mövcud adi səhmlərə malik səhmdarları səhmlərə mütənasib qaydada üstünlük hüququndan istifadə etdikdən sonra növbəlilik qaydasında sifarişlərə baxılır.

- **Səhmlərin dəyərinin ödənilməsi və investorların səhmlərlə təchizatı qaydası:**

Səhmlərin abunə yazılışı: Səhmlərin buraxılışı dövlət qeydiyyatına alındığı tarixdən sonrakı 2 (iki) iş gününün bitdiyi gün başlanılır. Abunə yazılışının bitmə müddəti: Abunə yazılışı başlandıqdan sonra 10 (on) iş günü ərzində başa çatacaq.

Yerləşdirmənin başa çatma tarixi: Yerləşdirmə başlandığı tarixdən etibarən 7 iş günü müddətinin başa çatdığı tarix.

Abunə yazılışı başa çatdıqdan sonra 2 (iki) iş günü ərzində səhmlərin yerləşdirilməsinin başlanma tarixi elan edilir və abunə yazılmış şəxslərə bu barədə bildiriş göndərilir həmçinin bununla bağlı "Bakı Fond Birjası" QSC-nin (www.bfb.az) və "Kapital Bank" ASC-nin (www.kapitalbank.az) saytında elan olunacaqdır.

İlk növbədə, əlavə buraxılan səhmləri almaqda üstünlük hüququ olan Emitentin adi səhmlərə malik səhmdarlarının səhmlərin alınması üçün təqdim etdikləri sifarişlər təmin olunur.

Yerləşdirilmənin başlanma tarixində səhmlərin satış qiyməti səhmlərin nominal dəyərinin 100 (bir yüz) faizini, yəni 1 (bir) ədəd səhmin satış qiyməti 12,39 (on iki manat otuz doqquz qəpik) manat təşkil edir.

Səhmlərin dəyəri nağdsız qaydada, milli valyutada (manatla) ödənilir. Səhmlərin alınması köçürmə yolu ilə anderrayter vasitəsilə həyata keçirilir. Bu vəsaitlər Bakı Fond Birjasında alqı- satqı əqdinin keçirilmə vaxtından gec olmayaraq anderrayterin (bundan sonra - hesablaşma bankı) manatı ilə ödənişləri üçün nəzərdə tutulmuş aşağıdakı cari hesabına köçürülməlidir.

PAŞA Bank ASC
AZ59NABZ01350100000000071944
Hesab nömrəsi: AZ53PAHA40060AZNHC0190006935
Emitent kodu: 505141
VÖEN: 1700767721
SWIFT: PAHAAZ22

İnvestorlar tərəfindən ödənilmiş pul vəsaitləri yuxarıda qeyd olunan anderrayterin hesablaşma bankında olan cari hesabında saxlanılır və həmin vəsaitlərin istifadəsinə yerləşdirmə başa çatdıqdan və Azərbaycan Respublikasının Mərkəzi Bankı (bundan sonra – Mərkəzi Bank) tərəfindən emissiyanın və ya kütləvi təklifin yekunları haqqında hesabat təsdiq edildikdən sonra yol verilir.

- **Üstünlük hüququnun istifadəsi qaydası və həmin hüquqdan istifadə olunmadıqda bunun nəticələri barədə məlumat:**

İlk növbədə əlavə səhmləri almaqda mövcud səhmlərə mütənasib şəkildə üstünlük hüququ olan Emitentin səhmdarlarının səhmlərin alınması üçün təqdim etdikləri sifarişlər təmin olunur. Üstünlük hüququna malik olan səhmdarlar səhmlərin Fond Birjasında yerləşdirilməsinə başlandığı tarixdən

maliyyə bazarlarının tənzimləyicisinin "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar"ına əsasən ilk iki iş günü ərzində üstünlük hüququndan istifadə edə bilər.

**Müzakirələrdən sonra iclasın sədri Yaşar Məmmədov təklifin səsə qoyulmasını zəruri hesab etdi.**

**SƏSVERMƏNİN NƏTİCƏLƏRİ**

**Lehinə** - iştirak edən və səsvermə hüququ olan **adi adlı səhmlərin** 99,913547%-i və ya 14 987 032 ədəd səhm, **imtiyazlı adlı sənədsiz səhmlərin** 16,63981%-i və ya 805 801 ədəd səhm.

**Əleyhinə - Həmidova Hicran Əmir qızı** (**adi adlı səhmlərin** 0.00133%-i və ya 200 ədəd səhm, **imtiyazlı adlı sənədsiz səhmlərin** 0.00136%-i və ya 66 ədəd səhm).

**Bitərəf** – yoxdur.

**"Kapital Bank" ASC-nin**
**Səhmdarlarının növbədənkənar ümumi yığıncağı**
**qərara alır:**

| | |
|---|---|
| **1** | 1. "Kapital Bank" ASC-nin nizamnamə kapitalının hər birinin nominal dəyəri 12,39 (on iki manat, otuz doqquz qəpik) manat olan 1 614 205 (bir milyon altı yüz on dörd min iki yüz beş) ədəd adi səhmlərin buraxılışı (kütləvi təklif üsulu ilə yerləşdirilməklə) yolu ilə artırılması məqbul hesab edilsin;<br>2. Buraxılacaq səhmlərlə təsbit olunan hüquqlar aşağıdakılardır:<br>– Emitentin idarə edilməsində Azərbaycan Respublikasının qanunvericiliyi və Emitentin nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək;<br>– qanunvericiliklə müəyyən edilmiş qaydada, Emitentin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;<br>– Emitentin səhmdarlarının ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək;<br>– Emitentin xalis mənfəətindən dividend almaq;<br>– Emitentin fəaliyyətinə xitam verildikdə, onun kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra Emitentin yerdə qalan əmlakının payına mütənasib hissəsini almaq;<br>– Azərbaycan Respublikasının hüquqi aktlarında və Emitentin nizamnaməsində nəzərdə tutulmuş digər hüquq və vəzifələr.<br>3. Buraxılış anderrayteri qismində "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC (VÖEN: 1402281511, Hüquqi ünvan: AZ1095, Bakı şəh., Lev Tolstoy, 170, Faktiki ünvan: AZ1065, Bakı şəh., C.Cabbarlı, 44 (Caspian Plaza)) çıxış edir;<br>4. Səhmlərin yerləşdirilməsi "Bakı Fond Birjası" QSC-nin (bundan sonra – Fond Birjası) ticarət platformasında həyata keçirilir və alqı-satqı əqdləri Fond Birjası vasitəsi ilə bağlanılır. Bununla bağlı müraciət maliyyə bazarlarına nəzarət orqanı tərəfindən bu səhmlərin buraxılışının dövlət qeydiyyatı başa çatdıqdan sonra həyata keçirilir. İnvestisiya şirkəti vasitəsi ilə səhmlərə alqı-satqı əqdləri Azərbaycan Respublikasının ərazisində Fond Birjasında bağlanılır.<br>5. Səhmlərin abunə yazılışının başlanma və başa çatma tarixləri:<br>– Səhmlərin buraxılışı dövlət qeydiyyatına alındığı tarixdən sonrakı 2 (iki) iş gününün bitdiyi gün başlanılır;<br>– Abunə yazılışı başlandıqdan sonra 10 (on) iş günü ərzində başa çatacaq;<br>– Abunə yazılışı müddəti bitdiyi tarixdən 2 (iki) iş günü ərzində səhmlərin yerləşdirilməsinin başlanma tarixi elan edilir və abunə yazılmış şəxslərə bu barədə bildiriş göndərilir, həmçinin bununla bağlı Fond Birjasının (www.bfb.az) və "Kapital Bank" ASC-nin |

| | |
|---|---|
| | (www.kapitalbank.az) saytında elan yerləşdirilir. Yerləşdirmə müddəti başlandığı tarixdən 7 (yeddi) iş günündən çox olmayan müddətə başa çatdırılır;<br>– İlk növbədə, əlavə buraxılan səhmləri almaqda üstünlük hüququ olan Emitentin adi səhmlərə malik səhmdarlarının səhmlərin alınması üçün təqdim etdikləri sifarişlər təmin olunur. Yerləşdirilmənin başlanma tarixində səhmlərin satış qiyməti səhmlərin nominal dəyərinin 100 faizini, yəni 1 (bir) ədəd səhmin satış qiyməti 12,39 (on iki manat otuz doqquz qəpik) manat təşkil edir;<br>– Səhmlərin dəyəri nağdsız qaydada, milli valyutada (manatla) ödənilir. Səhmlərin alınması köçürmə yolu ilə anderrayter vasitəsilə həyata keçirilir. Bu vəsaitlər Fond Birjasında alqı-satqı əqdinin keçirilmə vaxtından gec olmayaraq anderrayterin hesablaşma bankında olan Azərbaycan manatı ilə ödənişləri üçün nəzərdə tutulmuş cari hesabına köçürülməlidir;<br>– İnvestorlar tərəfindən ödənilmiş pul vəsaitləri yuxarıda qeyd olunan anderrayterin hesablaşma bankında olan cari hesabında saxlanılır və həmin vəsaitlərin istifadəsinə yerləşdirmə başa çatdıqdan və Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən emissiyanın və ya kütləvi təklifin yekunları haqqında hesabat təsdiq edildikdən sonra yol verilir;<br>6. Səhmlərə abunə yazılışının qaydası:<br>- Abunə yazılışı internetdə sayt vasitəsilə elektron və ya yazılışı şəkildə bildirişlərin təqdim edilməsi yolu ilə keçiriləcəkdir.<br>- Abunə yazılışının minimum və maksimum məbləği:<br>Buraxılış üzrə minimum məbləğ olaraq 19 999 999.95 (on doqquz milyon doqquz yüz doxsan doqquz min doqquz yüz doxsan doqquz manat doxsan beş qəpik) manat məbləğində 1 614 205 (bir milyon altı yüz on dörd min iki yüz beş) ədəd səhmin yerləşdirilməsi nəticəsində emissiya baş tutmuş hesab olunur. Qəbul edilən 19 999 999.95 (on doqquz milyon doqquz yüz doxsan doqquz min doqquz yüz doxsan doqquz manat doxsan beş qəpik) manat məbləği yığıldıqdan sonra abunə yazılışı dayandırılır. |
| **2** | **Bankın İdarə Heyətinə tapşırılsın ki, bu qərarın icrasından irəli gələn məsələlərin həyata keçirilməsini müvafiq qaydada təmin etsin.** |

**Sədr: Yaşar Məmmədov**

**Katib: Aynur Bayramova**